Bu yazi bizə gələn Mabtor(internet) məktublari içinde idi. Oxucularimiza təqdim etməyi məqsədə uyqun gördük „Anadili“

## ABŞ-da fars diasporu və İranın mövcud durumuna münasibətləri

ABŞ-ın apardığı antiterror əməliyyatlarının növbəti hədəfinin İran olduğunun ciddi ehtimal edilməsi səbəbilə Amerikadakı fars diasporunun bas verən hadisələrə münasibəti dünya ictimaiyyəti tərəfindən maraqla izlənilir. Maddi və intellektual cəhətdən normal səviyyəyə malik fars diasporunda Amerikanın İran siyasətinə münasibətdə müxtəlif istiqamətlər özünü göstərir. İlk növbədə, vurğulamaq istərdik ki, dünyada "fars, İran diasporu" ermini islədilən zamant kəmiyyət və keyfiyyət baxımından böyük qüvvəyə malik cənublu soydaşlarımızın milli kimliklərinin fars kimi verilməsinə cəhd göstərilir. Bu isə son illərdə güclənməyə və təşkilatlanmağa başlayan Azərbaycan diasporunun parçalanmasına xidmət etməklə fars şovinizminin hegemonluq planları ilə üst-üstə düşür. Belə yanlışlıqların aradan götürülməsi üçün fars diasporu ayrılıqda tədqiq edilməli və ictimai fikirdə bu cür qəbul olunmalıdır. İrandan farsların mühacirəti və dünyada fars diasporunun formalaşması tarixi Azərbaycan diasporunun cənub qanadının tarixi ilə eynidir. 1920, 1930-40-50, 1960-70 və 78-79-cu illər ərzində İrandan müxtəlif səbəblərlə köç edən farslar dünyanın müxtəlif bölgələrinə səpələniblər. Son statistik məlumatlara görə, fars diasporu dünya üzrə əsasən aşağıdakı ölkələrdə və göstərilən say tərkibilə qərar tutub: Avstraliyada 30 min nəfər, Kanada 75 min, Şərqi Avropa ölkələrində 40 min, Almaniyada 50 min nəfər, Hindistanda 35, İsveçdə 10, Suriyada 50 min nəfər, Böyük Britaniyada 40, Pakistanda 15, Yunanıstanda 15 min,Misir və Şimali Afrikada 13 min, nəhayət, Birləşmiş Ştatlarda 500 min nəfər. Statistikadan göründüyü kimi, Amerikada kifayət qədər güclü fars diasporu var. ABŞ-dakı fars. ların məskunlaşdıqları ərazi əsasən Kaliforniya ştatı - Los-Anceles, San-Fernando və Vaşinqton kimi şəhərlərdir. Digər səhər və ştatlarda da qruplar şəklində farslar yaşayırlar. Los-Ancelesdə Hollivud yaxınlığında "Kiçik Persiya - Tehranceles" məhəllәsi yerləşir. Buranın sakinlərinin əksəriyyəti farslardır. Farslar Amerikada normal həyat səviyyəsinə malik etnik qruplar içərisində olmaqla, tərkibi gündən-günə genişlənən diasporlardan biridir. Fars diasporunun tərkibi bir neçə təbəqədən ibarətdir. Birinci təbəqəyə 1930-40 və 1960 -70-ci illərdə sosial-iqtisadi səbəblərlə Amerikaya köçən farslar aiddir. Ali məktəblərdə təhsil alan və Birləşmiş Ştatlarda öz bizneslərini quran farsların buraya köçən zaman ingilis dilini bilmə səviyyəsi digər illərdəki mühacirət dalğalarında gələnlərdən fərqlənir. Bu təbəqə daxilində İrana münasibətdə üç fikir mövcuddur. Onların bir hissəsi şah rejiminin, bir hissəsi isə indiki molla rejiminin İran üçün əhəmiyyətli olduğunu düşünür. Şovinist ruhlu üçüncü hissə isə ümumfars ideologiyasının təbliği tərəfdarıdır. Birinci təbəqədən fərqli olaraq, 1950 və 1978-79-cu illərin mühacirləri nisbətən pis təmin olunmaqla bərabər, siyasi fəaliyyətə xüsusi önəm verirlər. Bu iki təbəqə arasında olan münasibətlər fars diasporunu nəzarətdə saxlamaq istəyən molla rejimi üçün əlverişlidir. Çünki birinci qrup assimilyasiyaya daha çox meylli olmaqla, onun islama münasibəti də fərqlidir. Ümumiyyətlə, Birləşmiş Ştatlarda xristian dininə meyl edən müsəlmanlar içərisində Livan ərəbləri və farslar xüsusilə seçilirlər. Amerikada fars diasporunun 45 faizi mühüm dövlət və təşkilati işlərdə çalışır. Bunu Güney Azərbaycan Milli Oyanış Hərəkatının (GAMOH) lideri Mahmudəli Çöhrəqanlı da Amerika səfərindən sonra verdiyi müsahibədə bildirib. Çöhrəqanlı etiraf edib ki, Amerikada farsların güclü mövqeyə sahib olmaları Azərbaycan diasporundakı parçalanmanın başlıca səbəblərindəndir. ABŞ-dakı farsların 35 faizi texniki-inzibati sahədə, 10 faizi müxtəlif sahələrdə çalışır. Onların 10 faizi isə hazırda işsiz sayılır. Birləşmiş Ştatlarda farslara məxsus çoxsaylı təşkilatlar var ki, bunlardan İran Diaspor Federasiyası, Amerika İranlılar Assosiasiyası, İran Konstitusiya Partiyası, İran Mədəniyyət Təşkilati və s. misal göstərmək olar. Amerikada fars diasporu arasında müxtəlif fikirlər mövcud olmasına baxmayaraq, fars millətinin və mədəniyyətinin "üstünlüyü" barədə yekdil mövqe var. Fars diasporunun əksər üzvləri cənubi azərbaycanlıların İran diasporunun bir hissəsi kimi qəbul edilməsinə daxilən narazı olsalarda, zahirən bu ideyanın tərəfdarı kimi çıxış edirlər. Bununla Azərbaycan türkü anlayışını daxildə əritməyə çalışan fars diasporu rejim əleyhinə çıxışlarına rəğmən, Cənubi Azərbaycanın İran tabeçiliyindən çıxması fikrinə qarşı sərt mövqe tuturlar. Fars millətinin "üstünlüyü" barədə cəfəng ideyaları təbliğ edərək Birləşmiş Ştatlarda çoxsaylı cənubi azərbaycanlıları təsir altına salmağa çalışan fars diasporunun üzvləri Amerikanın İran siyasətinə də birmənalı münasibət bəsləmirlər. Bir qrup Amerika farsı hesab edir ki ABŞ İranla davranışda hərb taktikasını seçməlidir. Bunun nəticəsində tezliklə İranda rejimi dəyişmək mümkün olmasına həmin qrupda güclü inam var. Digər bir qrup isə İranla problemin həllini diplomatik yolda, danışıqlarda görürlər. Şah tərəfdarı olan farslar şahzadə Rza Pəhləvinin İrana qayıtması üçün Amerika rəsmilərinin tezliklə əməliyyatlara başlamasının zəruriliyini vurğulayırlar. Molla rejiminin tərəfdarları olan qüvvələr isə İranın İraq olmadığı barədə şüarlar səsləndirərək "Böyük şeytan"ın - Amerikanın İranda məğlub olacağını iddia edirlər. Bu qüvvələr Amerikanın daxilində iş aparmaqla yanaşı, "əl Qaidə", "Hizbullah", "İslam mücahidləri", "Həmas", "İslam cihadı", "ASALA", "PKK/KADEK" kimi terror təşkilatları ilə əməkdaşlıq etməkdən də çəkinmirlər. Rus tədqiqatçısı Mixail Falkov hesab edir ki, farsyönümlü terror təşkilatlarının maliyyələşməsinin bir qolu xaricdə yaşayan farslar tərəfindən həyata keçirilir. Bu da göstərir ki, müəyyən fikir ayrılıqlarına baxmayaraq, fars diasporu bütövlükdə İranın parçalanmasının əleyhinədir. Cənubi Azərbaycanın İranın "tarixi ərazisi" olması haqda cəfəng fikri təbliğ edən farslar Amerikanın yalnız rejimi dəyişmək mövqeyini dəstəkləyəcəklərini bəyan edirlər. Vaşinqton universitetinin professoru Əhməd Kərim Həqqaq hesab edir ki, Amerika İran siyasətində diplomatiya yolunu seçməli,

## بۇش وه تئرۆریست ایران رئژیمی
## Buş və Terorist rejim

ائدەجەیی ائنئرژی‌نین نئچه بوز برابرینی الده ائده بیلیردیلر، آرتیغي‌نیدا قونشو اۆلکەلره ساتا بیلیردیلر. وه گلەجک نسیللره نئچه مین ایل آتۆم زیبیلی بۇراخمازدیلار..

تئهران رئژیمی‌نین مسئلەسی ائنئرژی الده ائتمک یوْخ، آتۆم سیلاحینی الده ائتمکدیر. چونکي بۇ رئژیم بئله دوشونورکی، آتۆم سیلاحاینا مالیک اۆلدۇقدان سۆنرا بشریتین اۆز قاراسي اۆلان جینایتکار، مستملکەچي تئرۆریست رئژیملری‌نین




CASRTOONSTS & WRITERS SYNDICATE
Http CatoonWeb.com

اۆمرونۆ قارانتي ائده بیلەرلر..!. آمما چوْخ یانیلیرلار. حتا آتۆم سیلاحلاري اۆلسا بئله، دونیا ایجتماعیتي بۇ رئژیمه بۇ شانسي تانیمییاجاقدیر. بۇ چناق اۆنلارین اۆز باشیندا ، وه فارس شۆوۆنیزمي‌نین مستملکەسینده یاشاماق زوْرۇندا قالان میللتلرین باشیندا سیناجاقدیر. آمئریکا پرئزیدئنتي‌نین منطقەیه گلیشي تئهران رئژیمی اوچون بیر ایختار معناسینا گلیر. دونیا ایجتماعیتي بۇنۇ درک ائتمیشدیر. بئله بیر رئژیمین یاشاماسي بشریت اوچون بیر تهلۆکه تشکیل ائدیر.. واختي ایله آمئریکالیلار، آوروۆپالیلار خمینی کیمی بیر جینایتکاري سۆزده اینقلاب چرشافي آلتیندا اۆز نۆکرلری اۆلان شاهین یئرینه گتیرمیش اۆلسالاردا، بوگون بئله بیر رئژیمین قالماسینا داها احتیاجلاري یوْخدۇر. بیر تک سۆزله دئسک بۇ رئژیمین مصرف تاریخي چوْخدان کئچمیشدیر. یاشاما حاقي ایتیرمیشدیر.. تئزلیکله تاریخین کولویونه توکولمه یه محکۇمدۇر. اۆ زامان فارس شۆوۆنیزمي‌نین مستملکەسینده یاشاماق زوْرۇندا قالان میللتلرده اۆز گلەجکلرینی ایستەدیکلری کیمی تعیین ائتمه ایمکانیني قازانمیش اۆلاجاقلار.